# Bakı Enerji Həftəsi:

## Neft-qaz mirası "yaşıl gələcəyə" doğru

**Azərbaycanın gələcəyə hesablanmış uğurlu neft və qaz strategiyası uzun illərdir öz bəhrəsini verir.**

Bu müddət ərzində xarici investorların cəlb edilməsi, xam neftin daşınması yollarının şaxələndirilməsi, neft gəlirlərinin səmərəli idarə olunması, alternativ enerji mənbələrinin müəyyənləşdirilməsi istiqamətində çoxsaylı işlər görülüb.

1994-cü il sentyabrın 20-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında "Əsrin müqaviləsi" imzalanıb. Dəyəri 7,4 milyard dollar olan bu müqaviləyə dünyanın 7 ölkəni təmsil edən 11 beynəlxalq neft şirkətin nümayəndəsi imza atıb. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalanıb. Bununla da "Azəri-Çıraq-Günəşli" nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlanıb. 2019-cu ildə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun müqavilə ərazisində əlavə hasilat platformasının tikintisi üzrə razılaşma əldə olunub. Hasilatın Pay Bölgüsü haqqında saziş yenidən işlənib və 2049-cu ilin sonunadək uzadıllb.

BAKU ENERGY WEEK
31 MAY
3 İYUN
2023

**(davamı 8-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Dünyanın azsaylı nəhəng qaz yataqlarından hesab olunan "Şahdəniz" XX əsrin ortalarında azərbaycanlı geoloqlar tərəfindən kəşf edilib, lakin müvafiq texnologiyaların yoxluğu səbəbindən istismar olunmayıb, potensial imkanları müəyyən edilməyib. 2011-ci ildə Azərbaycan və Avropa Komissiyası arasında "Cənub Qaz Dəhlizi" layihəsi üzrə Birgə Bəyannamə imzalanıb, bu da həmin layihənin icrasının başlanğıcı olub. Azərbaycan strateji əhəmiyyət daşıyan "Cənub Qaz Dəhlizi" layihəsinin təşəbbüskarı, səhmdarı və ev sahibidir. Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, daha sonra isə İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya qoşulub.

"Yaşıl enerji" növlərinin yaradılması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkədə bərpaolunan enerji sahəsinin inkişafı, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun qəbul edilib. Respublikada alternativ enerji bazarının inkişaf perspektivləri külək, günəş enerjisi, hidroenergetika və "yaşıl enerji" sahələrində müxtəlif layihələrin həyata keçirilməsi üçün bir çox şirkətlərə potensial imkanlar açır. Artıq hər il ənənəvi qaydada keçirilən Bakı Enerji Həftəsi, Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri ölkəmizə çoxsaylı ekspertlərin, şirkət rəhbərləri, elm adamlarının səfərlərini mümkün edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il mayın 31-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılışında iştirak edib. Tədbirdə 320 müxtəlif şirkət 35 ölkəni təmsil edib. Ən önəmli fakt Bakı Enerji Həftəsinin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin yubileyi ilə üst-üstə düşməsi idi. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Sərgi çərçivəsində Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş stend nümayiş olunub.

Dövlətimizin başçısı açılış mərasimindəki çıxışında qeyd edib ki, 1994-cü ildə təşkil edilən Xəzər neft-qaz sərgisi Azərbaycanı dünyanın beynəlxalq enerji ictimaiyyətinə təqdim etdi: "Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu, Avrasiyanın enerji xəritəsini dəyişib. Bu gün Azərbaycan istehsalçı olaraq həm tranzit ölkələr, həm də istehlakçılar üçün daha təhlükəsiz şərait yaradıb. Bu gün enerji təhlükəsizliyi, əlbəttə ki, milli təhlükəsizliyə bərabərdir və hətta milli təhlükəsizlik gündəliyində ən başlıca yeri tutur". Prezident İlham Əliyev həmçinin bildirib ki, 2022-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb: "Biz








özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir".

Prezident İlham Əliyev çıxışında Yunanıstan-Bolqarıstan interkonnektorunun önəminə də diqqət çəkib. Azərbaycanın qaz ixracı coğrafiyasının genişləndirilməsi istiqamətində mühüm addımların atıldığını qeyd edib. Buxarest şəhərində Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya rəsmiləri bir araya gələrək "yaşıl enerji" və transmissiyaya dair müvafiq sənəd imzalanıb. Layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorundan əldə olunacaq külək enerjisini ötürücü xətlər və Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa bazarlarına nəqli nəzərdə tutulur. Bu layihə çərçivəsində 4 qiqavat "yaşıl enerji"nin Avropaya nəqli nəzərdə tutulur. O cümlədən, Bolqarıstanın Prezidentinin təşəbbüsü ilə "Həmrəylik Halqası" layihəsinə diqqət çəkmək yerinə düşər. Bu layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir.

Dövlət başçısı Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri ilə tanış olub. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR sərgidə geniş təmsil olunub. Stenddə SOCAR-ın Apstrim, Midstrim və Daunstrim istiqamətlərində, həmçinin marketinq, satış fəaliyyəti və müxtəlif xidmətləri barədə məlumatlar təqdim olunub. "Yaşıl enerji" layihələrinə dair bölmədə SOCAR-ın "yaşıl enerji"yə baxışı, bərpaolunan enerji mənbələri üzrə pilot layihələri barədə informasiyalar diqqət çəkib.

O cümlədən, Prezident İlham Əliyev "BP-Azərbaycan", Türkiyənin TPAO, "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Assosiasiyası, Rusiyanın "TMK" və "Qazprom", Çinin "CHINT Electric", İsrailin "Magal Solutions", Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "MASDAR", Özbəkistanın "Uzbekneftegaz", Niderlandın "DAMEN Shipyards", İtaliyanın "Tenaris", Belarus Ticarət və Sənaye Palatasının "Belinterexpo" unitar müəssisəsi, "SOCAR Türkiyə", ABŞ-ın "Schlumberger" və Fransanın "TOTAL" şirkətlərinin stendinə baxıb.

"Caspian Oil&Gas" Sərgisi artıq neft, qaz və enerji sektorunda əhəmiyyətli əməkdaşlıq üçün mühüm platformaya çevrilib. Hər il Azərbaycan Prezidentinin açılış mərasimində iştirakı isə sərginin yüksək statusunu bir daha təsdiqləyir. Azərbaycanın paytaxtı artıq nüfuzlu tədbirlərin təşkil edildiyi, mühüm qərarların və əməkdaşlıq məsələlərinin müzakirə edildiyi haba çevrilib. Bu gün Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 31 may (№112).- S.1;8.